**BMT-nin ali nümayəndəsi Migel Anxel Moratinos: COP29-a ev sahibliyi etdiyi üçün Azərbaycana təşəkkür edirəm**

COP29-a ev sahibliyi etdiyi üçün Azərbaycana təşəkkür edirəm və bu tədbirdə iştirak etmək bizim hər birimizin öhdəliyidir.

AZƏRTAC xəbər verir ki, bunu "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Yaşıl gələcəyə davamlı yol: COP29 və sonrakı dövr üçün birgə fəaliyyət" adlı Beynəlxalq Təşkilatların III Zirvə Görüşündə çıxış edən

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos deyib.

"Həqiqətən də COP29-u təşkil etdiyi üçün Azərbaycana təbriklərimizi çatdırmaq istəyirik. Biz əminik ki, bütün komandanın tam səyi ilə COP29-un uğurlu keçirilməsinə nail olacağıq", - deyə o bildirib.

**AZƏRTAC**
**2024, 1 may**